AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

20-21 (115-116) 30 noyabr 2018-ci il İctimai-siyasi qəzet


*Veteranların təcrübəsindən biz daim bəhrələnməliyik, istifadə etməliyik. Həm cəbhədə, həm də arxada çalışmış, şücaətlər, əmək fədakarlığı göstərmiş veteranların qəhrəmanlığı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

*Heydər Əliyev*

## İlham Əliyev Rusiyanın Çeçenistan Respublikasının başçısının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

*Qonaqları salamlayan Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:*

-Hörmətli Ramzan Əhmədoviç.

Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz xalqlarımız arasında ənənəvi qardaşlıq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcək. Çeçen və Azərbaycan xalqları əsrlər boyu dostluq edirlər, bir-birini dəstəkləyirlər və bu gün bizim münasibətlərimiz yeni səviyyəyə çıxır. Buna görə mən Sizi bizim əziz qonağımız kimi ölkəmizdə salamlamağa çox şadam. Fürsətdən istifadə edərək, Sizi və bütün qardaş çeçen xalqını sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə görə təbrik etmək istərdim. Mən bilirəm və Sizin respublikanıza səfər edənlər mənə danışırlar, televizorda da görürəm ki, şəhərlər necə dəyişir, respublika çiçəklənir və bir çox sosial, infrastruktur məsələləri həll olunur. Bilirəm ki, bütün bunlar Sizin şəxsi nəzarətiniz və rəhbərliyiniz altında baş verir. Bizi o da çox sevindirir ki, Çeçenistan Respublikasında sabitlik bərqərar olub, insanlar təhlükəsizlik şəraitində, sakit yaşayırlar, öz doğma torpaqlarında qurub-yaradırlar.

Bildiyiniz kimi, Azərbaycanı Şimali Qafqaz respublikaları ilə uzun tarix, yaxın münasibətlər, mənəvi, mədəni, doğma əlaqələr bağlayır. Biz hesab edirik ki, Qafqazda sabitlik və təhlükəsizlik, inkişaf ancaq birgə səylər nəticəsində mümkündür. Əlbəttə ki, bizim Çeçenistan Respublikası və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycanla Rusiya arasında münasibətlərin mühüm amilidir. Siz bilirsiniz ki, bu münasibətlər uğurla inkişaf edir. Biz strateji tərəfdaşlarıq. Dövlət başçılarının çoxlu səfərləri olub. Son beş ildə Rusiya Prezidenti Azərbaycana dörd dəfə səfər edib və bu ilin sentyabrında mən də Rusiyaya səfər etdim, o da Azərbaycana gəldi. Biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk və çox yüksək etimad səviyyəsi mövcuddur. Yəqin bilirsiniz ki, Vladimir Putinin səfəri zamanı sizin də nümayəndələrinizin olduğu Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib. Buna görə də bir daha demək istəyirəm ki, münasibətlərimiz tarixə, qardaşlığa əsaslanır. Əminəm ki, Sizin səfəriniz əlaqələrimizin möhkəmlənməsinə xidmət edəcək. Bir daha xoş gəlmisiniz.

*Çeçenistan Respublikasının başçısı Ramzan KADIROV dedi:*

-Möhtərəm İlham Heydər oğlu, dəvətə və bizə vaxt ayırdığınıza görə sağ olun. Fürsətdən istifadə edərək, Sizi yenidən xalqın etimadı ilə Prezident seçilməyiniz münasibətilə bir daha təbrik etmək istərdik. Siz təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlmanlar üçün xeyirxah işlər görürsünüz. Biz Sizin qardaşlıq münasibətləri qurduğunuzu, konfranslar keçirdiyinizi, təkcə dini liderləri deyil, bizim regionların rəhbərliyini də qəbul etdiyinizi və yalnız müsəlmanları deyil, bütün konfessiyaları birləşdirdiyinizi görürük. Bu, çox qiymətlidir. Buna görə də bunu həm Azərbaycan xalqı, həm də bütün Qafqaz xalqları görür. Bizimlə görüşə vaxt ayırdığınız üçün çox şadam. Şadam ki, bizim qardaşlıq və dostluq münasibətlərimiz var. İndi mədəni, idman və digər sahələrdə münasibətləri inkişaf etdiririk. Ən əsası isə qardaşlıq münasibətləridir. Çünki xatırlamaya bilmərəm, ən çətin illərdə Prezident Heydər Əliyev bizim xalqa kömək etdi, kömək əlini uzatdı və sonadək kömək etdi, bizi dəstəklədi. Biz bunu heç vaxt unutmayacağıq. Buna görə, biz hörmətli Heydər Əliyevin xatirəsinə bağ salmışıq. Onun açılışında əziz, böyük qardaşımızın iştirakını gözləyirik. Əgər Siz imkan tapıb Çeçenistan Respublikasına gələ bilsəniz bu, bizim üçün həm siyasi, həm qardaşlıq, həm də insani cəhətdən çox mühüm olacaq. Bizi dəvət etdiyinizə, bizə vaxt ayırdığınıza, bütün müsəlmanlar və Qafqaz, xüsusən bizim region üçün hər şey etdiyinizə görə bir daha "Çox sağ olun" demək istəyirəm.

*Prezident İlham ƏLİYEV dedi:*

-Çox sağ olun. Mən atam Heydər Əliyevin xatirəsinə olan belə hörmətə və belə gözəl bağın yaradılmasına görə təşəkkürümü bildirmək istərdim. Bu, bizim hamımız üçün çox vacibdir. Çox minnətdaram və öz tərəfimdən demək istərdim ki, Azərbaycanda da, həmçinin xalqınız üçün ən çətin illərdə xalqı tərəqqi yolu ilə aparan və öz dini, öz xalqı və gələcək naminə şəhid kimi özünü qurban verən Çeçenistan Respublikasının rəhbəri Hacı Əhməd Kadırovun xatirəsinə böyük hörmətlə yanaşırlar. Siz bilirsiniz ki, valideynlərimizi də yaxın münasibətlər bağlayıb. Biz bu ənənəni davam etdiririk. Belə də olmalıdır. Əminəm ki, irəliyə doğru gedəcəyik və əlbəttə, böyük məmnuniyyətlə Sizin dəvətinizi qəbul edirəm, səfər edəcəyəm.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şərəfinə nahar verildi.

Daha sonra xatirə şəkilləri çəkdirildi.


Veteranlar Müdafiə Nazirliyinin hərbi hissələrindən birinə səfər edib

Səh-3

Zaqatala rayon Veteranlar Təşkilatı fəaliyyəti təqdirəlayiqdir

Səh-4

Sloveniya yazıçısının Mehdi Hüseynzadəyə həsr etdiyi kitab Fərhad Abdullayevin tərcüməsində

Səh-5

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi qeyd edilib

***Noyabrın 13-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Veteranların, ziyalıların, gənclərin iştirak etdikləri tədbirdə əvvəlcə Bakı Slavyan Universitetinin müəllim və tələbələrinin hazırladıqları, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin həyatını və döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub.

Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov tədbir-



də çıxış edərək Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin qəhrəmanlığından, ümumiyyətlə Azərbaycanın İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında verdiyi töhfələrdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında müvafiq Sərəncamı ölkə rəhbərliyi tərəfindən onun, ümumilikdə İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş azərbaycanlıların xatirəsinə yüksək dəyərin verilməsinin növbəti təzahürüdür.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək bildirib ki, "Mixaylo" ləqəbi ilə tanınan Mehdi Hüseynzadənin adı Azərbaycanın qəhrəmanlıq tarixinə əbədi həkk olunub. O, nəinki ölkəmizdə, hətta Avropada və dünyada faşizmə qarşı cəsarətlə, dəyanətlə mübarizə aparmış insan kimi tanınır. Mehdi Hüseynzadə qısa, ancaq şərəfli ömrüboyu bütün qəlbi ilə sevdiyi Azərbaycana, Vətəninə və xalqına sadiq qalıb.

Məlumat verilib ki, 1918-ci il dekabrın 22-də Bakının Novxanı kəndində anadan olmuş Mehdi Hüseynzadə 1942-ci il avqustun 9-da cəbhəyə gedib. O, döyüşlərin birində əsir düşsə də, həbs düşərgəsindən qaçaraq partizan dəstəsinə qoşulub. M.Hüseynzadə Yuqoslaviya, Triest, İtaliya partizanlarının sırasında alman faşizminə qarşı fəal mübarizə aparıb, kəşfiyyat-təxribat qrupunun rəhbəri kimi çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirib. O, 1944-cü il noyabrın 2-də tapşırığı yerinə yetirib qayıdarkən Vitovli kəndində qarşılaşdığı düşmənlə qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olub. Onun nəşi yerli əhali tərəfindən dərin ehtiramla dəfn edilib. Qəhrəmanımız haqqında azərbaycanlı müəlliflərlə yanaşı, keçmiş SSRİ, Avropa ölkələrinin tarixçiləri, jurnalistləri də sanballı əsərlər yazıblar. İgid döyüşçünün qəhrəmanlığı "Uzaq sahillərdə" filmində ətraflı diqqətə çatdırılıb.

Bildirilib ki, Mehdi Hüseynzadənin qəhrəmanlığı sovet ictimaiyyətinə 1956-cı ilin mayında partizan V.Sokolovun xatirələri əsasında qələmə alınan "Partizan igidliyi" məqaləsinin "Krasnaya Zvezda" qəzetində yayımlanmasından sonra məlum olub. Həmin ilin oktyabrında partizan Q.A.Jilyayevin yazdığı "Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr" əsərinin əlyazmasını Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutuna verdikdən sonra igid qəhrəmanın partizan fəaliyyəti haqqında materialların toplanılmasına başlanılıb. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin müraciəti ilə leytenant Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsində Yuqoslaviyada və İtaliyada partizan fəaliyyəti və misilsiz qəhrəmanlığına dair gizli axtarış aparılıb. Nəticədə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli qərarı ilə Mehdi Hüseynzadəyə "Sovet İttifaqı Qəhrəmanı" adı verilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov deyib ki, İkinci Dünya müharibəsində alman faşizminə qarşı döyüş-



lərdə Azərbaycan oğulları nəyə qadir olduqlarını əzmlə nümayiş etdiriblər. Aralarında Mehdi Hüseynzadə də olmaqla yüzdən çox həmvətənimiz "Sovet İttifaqı Qəhrəmanı" adına, on minlərlə azərbaycanlı isə orden və medallara layiq görülüb. Mehdi Hüseynzadənin, Həzi Aslanovun, İsrafil Məmmədovun və onlarla başqa azərbaycanlının adları İkinci Dünya müharibəsinin tarixinə qızıl hərflərlə yazılıb.

Vurğulanıb ki, Azərbaycan öz qəhrəman oğlu ilə fəxr edir. Onun adının əbədiləşdirilməsi istiqamətində görülmüş işlər bu minnətdarlığın göstəricisidir. Azərbaycanın Mehdi Hüseynzadə kimi qəhrəman oğullara daha böyük ehtiyacı var. Çünki ölkəmizin ərazisinin 20 faizi təcavüzkar Ermənistanın hərbi birləşmələri tərəfindən işğal olunub.

"Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yaradılmış güclü Azərbaycan Ordusu işğal altındakı əra-



zilərimizi azad etməyə tam qadirdir. Biz veteranlar Azərbaycan torpaqlarının şanlı ordumuz tərəfindən azad ediləcəyinə inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk", - deyə C.Xəlilov vurğulayıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Mehdi Hüseynzadənin həyat və döyüş yolunu tədqiq etmiş, tarix üzrə fəlsəfə doktoru Məmməd Cəfərli və jurnalist Ruqiyə Əliyeva, "Respublika Xatirə Kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova və başqaları çıxışlarında Mehdi Hüseynzadənin rəhbərlik etdiyi kəşfiyyat-təxribat qrupu ilə həyata keçirdiyi uğurlu əməliyyatlardan söz açıb, onun və İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş digər oğullarımızın şücaətindən danışıblar.

Çıxış edənlər Mehdi Hüseynzadənin şərəfli ömür yolunun bu gün gənclər üçün örnək olduğunu deyib, gəncləri məhz belə qəhrəmanlardan nümunə götürməyə və onların xatirəsini heç vaxt unutmamağa çağırıblar. Natiqlər Azərbaycan əsgərinin hazırda öz sələflərinin yolunu şərəflə davam etdirdiyini və yaxın gələcəkdə üçrəngli bayrağımızı işğal altındakı bütün ərazilərimizdə dalğalandıracağına əminliklərini bildiriblər.

# Veteranlar Müdafiə Nazirliyinin hərbi hissələrindən birinə səfər edib

***Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının müraciətinə əsasən təşkilatın bir qrup üzvü Müdafiə Nazirliyinin hərbi hissələrindən birinə səfər edib.***

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun başçılıq etdiyi veteranlar qrupu hərbi şəhərciyi gəzib, qərargah binasında və digər obyektlərdə yaradılmış yüksək xidməti şəraitlə tanış olub, hərbi aşpazlar kursunun məşğələsində iştirak edib və şəxsi heyətlə görüşərək onların problem və qayğıları ilə maraqlanıblar.



Akt zalında keçirilən görüş zamanı veteranlar bu hərbi hissənin timsalında müasir Azərbaycan Ordusunun son illərdəki inkişaf və qüdrətlənməsinin şahidi olduqlarından qürur hissi keçirdiklərini bildiriblər.

Laçın rayon Veteranlar Təşkilatının sədri, Böyük Vətən müharibəsi veteranı, 97 yaşlı Əlikişi Cümşüdov, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov, İkinci Dünya müharibəsinin hərbi təyyarəçisi Damət Nəbiyev, idman veteranı, 16 qat dünya və Avropa çempionu olmuş Hacı Məhəmməd Müslümzadə çıxış edərək hərbi hissədə gördüklərindən məmnun qaldıqlarını vurğulayıb və Azərbaycan əsgərinin müdrik və qətiyyətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünü təmin etmək üçün istənilən əmri yerinə yetirməyə hazır olduqlarına əminliklərini qeyd ediblər.

Əfqanıstan və Qarabağ müharibəsinin veteranı, istefada olan polkovnik Adil Haqverdiyev 1994-cü ildə Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə başlanan və komandanlığı altında uğurla nəticələnən məşhur "Horadiz əməliyyatı"nda iştirakını yada salıb və bu qələbənin 22 ildən sonra, 2016-cı ilin aprelində cənab İlham Əliyevin rəhbərliyi altında yenidən təkrar olunduğunu iftixar hissi ilə qeyd edib.

"Mən əslən Qusar rayonundanam. Vətən təhlükədə olanda ölkəmizin digər bölgələrinin igid oğulları ilə yanaşı biz qusarlılar da bir nəfər kimi ayağa qalxdıq. Qarabağ uğrunda döyüşlərdə 60 nəfərdən çox şəhid verdik. Onların sıralarında Milli Qəhrəmanlarımız da var. Biz bu gün də Vətən uğrunda Ali Baş Komandanın hər bir əmrinə hazırıq. Silahlı Qüvvələrdən tərxis olunduğum üçün bir neçə ildir ki, hərbi hissələrdə olmurdum. Ancaq bu gün gördüklərim sözün həqiqi mənasında məni heyrətləndirdi. Kim ki, bu inkişafı, bu tərəqqini görmür, qiymətləndirmir yazıq onların halına. Heç olmasa, Ermənistan ordusunda nələr baş verdiyini, ölkəni bürüyən əsgər valideynlərinin etiraz dalğasını, ordudakı özbaşınalıqları görsün və ordumuzun qədrini bilsinlər. Azərbaycan inkişaf yolundadır və Ordumuz günü-gündən daha da qüdrətlənir, maddi-texniki bazası möhkəmlənir, şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi yüksəlir. Ordumuz dövlət başçımızın daim diqqət mərkəzindədir və Müdafiə Nazirliyinin rəhbərliyi qarşısına qoyulmuş tapşırıqları layiqincə yerinə yetirir"- ötən əsrin 90-cı illərinin əvvəllərində üç qardaşı ilə birlikdə Qarabağ uğrunda döyüşlərə könüllü yollanmış ehtiyatda olan polkovnik Bəhram Ağakişiyev deyib.

Hərbi qulluqçulardan Ədalət Hacıyev, Əbülfət Xəlilov, Humay Akiyeva çıxış edərək qonaqları əmin ediblər ki, onlar ata və babaların qəhrəmanlıq ənənələrini bundan sonra da şərəflə davam etdirəcək, Azərbaycanın hərb tarixinə daha parlaq səhifələr yazacaqlar.






Tədbirin sonunda Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Respublika Veteranlar Təşkilatının növbəti təşəbbüsünü də yüksək qiymətləndirib və onlara minnətdarlığını bildirib. Qonaqlara hərbi hissənin komandanlığı adından xatirə hədiyyələri təqdim edilib.

# Veteranlar cəbhə bölgəsində yerləşən hərbi hissələrdə

***Respublika Veteranlar Təşkilatının nümayəndə heyəti Respublika Hərbi Prokurorluğu ilə birlikdə tərtib edilmiş İş Planına əsasən 16-17 noyabr 2018-ci il tarixdə Tərtər-Bərdə və Ağdam rayonları ərazisində yerləşən "N" saylı hərbi hissələrdə olmuşdur.***

Respublika Veteranlar Təşkilatı mütəmadi olaraq hərbi vətənpərvərlik sahəsində, düşmən üzərində qələbənin qazanılması, dağlıq ərazilərdə kəşfiyyat və döyüşlərin aparılması taktikası, eləcədə düşmənə qəfildən zərbələrin endirilməsinin taktika və metodlarından geniş izahat işlərini həyata keçirir.



Keçirilən tədbirlərdə Respublika Veteranlar Təşkilatının nümayəndə heyəti - polkovnik Adil Haqverdiyev, polkovnik-leytenant Adil Babaşov, Əsgər anaları Şurasının sədri Gərayzadə Leyla Zeynalabdin qızı və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun vitse-prezidenti Məmmədova Nüşabə Ələsgər qızı da iştirak edərək Tərtər-Bərdə və Ağdam rayonları ərazisində olan "N" saylı hərbi hissələrin əsgər, gizir və zabitləri qarşısında vətənpərvərlik, Azərbaycan dövləti və xalqı sülh tərəfdarıdır, ermənilərin işğalçılıq siyasətinin mövcudluğunu şəxsi heyətə çatdırmaq mövzusunda çıxış etmişlər.

Adil Haqverdiyev çıxışında "Biz müharibə övladlarıyıq, vətən həsrəti ilə, inamla yaşayan və inkişaf edən bir nəsilik. Yanılmıramsa, artıq üçüncü nəsil bu münaqişənin şahidinə çevrilib. Ancaq müşahidələrim göstərir ki, nəsillərin artmasının, zamanın irəliləməsinin heç də insanlarda vətənpərvərlik hisslərinin zəifləməsinə, vətən sevgisinə heç bir təsiri olmadı. Əminliklə deyə bilərik ki, tariximizə dayanan, keçmişimizə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də heç kim bizim vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub bizim. Dörd gün ərzində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyimizin fərqinə vardıq. Səfərbərliyin elan edilməsini gözləyən gənclərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazır idilər. Bir sözlə inamımızın, ümidimizin, mübarizliyimizin ölmədiyinin şahidi olduq. Qarabağ indiyə qədər ürəyimizdə yara olaraq qalır. Qarabağ xatirələrimizi övladlarımıza danışaraq müsbət sonluqlarla tamamlayırıq. Çünki inamımız və imanımız var" fikirlərini qeyd etmişdir.



"N" saylı hərbi hissələrin komandanlığı Respublika Veteranlar Təşkilatının və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinə öz dərin minnətdarlığını bildirmişlər. Tədbirlərdə həmçinin Respublika Hərbi Prokurorluğunun böyük köməkçisi, ədliyyə polkovniki Zamanov Şahin Zaman oğlu, Tərtər rayonunun hərbi prokuroru, ədliyyə mayoru Məmmədov Hümbbət Baloğlan oğlu və Qarabağ prokrorunun müavini, ədliyyə polkovnik-leytenantı Tahir Quluyev çıxış etmişlər.

Tədbirin sonunda şəxsi heyətlə xatirə şəkilləri çəkilmişdir.

***Adil Haqverdiyev***
***e.o polkovnik-leytenant,***
***Respublika Veteranlar Təşkilatının əməkdaşı***

# Dünya Veteranlar Federasiyasının prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb

Dünya Veteranlar Federasiyasının prezidenti Dan-Viqqo Berqtun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, məktubda Dan-Viqqo Berqtun Dünya Veteranlar Federasiyasının oktyabrın 16-19-da Bakıda keçirilmiş tədbirlərdə iştirak edən nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və diqqətə görə dövlətimizin başçısına minnətdarlıq edir. Dan-Viqqo Berqtun Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illik yubileyinə həsr olunan tədbirlərin, xüsusilə də Azərbaycanda veteranlara göstərilən yüksək diqqət və qayğının onda dərin təəssüratlar yaratdığını bildirir, bunun Dünya Veteranlar Federasiyasının üzvləri üçün yaxşı nümunə olduğunu vurğulayır.

“Bu, Azərbaycana ilk səfərim idi və mən bu səfərdən olduqca məmnun qaldım. Bakıda hökm sürən sabit, xoş mühit məndə çox yaxşı təəssürat yaratdı”, - deyə Dan-Viqqo Berqtun məktubunda qeyd edir.

Xatırladaq ki, Dünya Veteranlar Federasiyasının nümayəndə heyəti ötən ay Bakıda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illiyi ilə bağlı tədbirlərdə, “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar” mövzusunda beynəlxalq konfransda iştirak edib.



# Zaqatala rayon Veteranlar Təşkilatı fəaliyyəti təqdirəlayiqdir



Zaqatala rayon Veteranlar Təşkilatı rayonda xüsusi hörmətə malik təşkilatlardan biridir. Təşkilat rayonun bütün tədbirlərində təmsil olunur, çıxışlar edirlər. Rayon Veteranlar Təşkilatının sədri Ənvər Kərimov rayon ictimai və dini məsələlər üzrə komissiyaların üzvüdür. Hər il Qələbə günü yüksək səviyyədə təşkil edilmişdir. Bu il qələbə Qələbə Günündə Dağıstan Respublikasının əməkdaşları iştirak etmişlər. Onlar veteranlara hədiyyələr vermiş, görüşlərdə Dağıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq çıxışları olmuşdur.

Əlamətdar günlərdə veteranlarla gənclərin görüşü keçirilir. Veteranların təcrübəsindən gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsində istifadə edilir, müasir Azərbaycan gəncinin vətənpərvər ruhunda tərbiyəsini əsas götürür və təbliğ edir. Tariximizin, xalqımızın tolerantlıq, sülhsevərliyini təbliğ edir, işimizin öhdəsindən layiqincə gəlməyi bacarırıq.



Zaqatala rayon Veteranlar Təşkilatı tərtib edilmiş qrafik əsasında orta məktəblər, Daxili Qoşunlar və Sərhəd qoşunlarında görüşlər keçirir. Gənclərin hərbi xidmətə yolasalma kompaniyasında iştirak və çağırışçılar qarşısında veteranlar çıxış edirlər. Veteranlar aprel hadisələrində qəhrəmanlıq göstərmiş, vətən uğrunda canlarından keçmiş iki Zaqatala gənci şəhid olmuşlar. Biz veteranlar onların dəfn mərasimində iştirak etmiş, məzarları önündə çıxış etmişik.

Rayon Veteranlar Təşkilatının rəhbərliyi bütün kateqoriyadan olan veteranların sosial təminatlarının vaxtında və düzgün ödənilməsini hər zaman diqqət mərkəzində saxlayır. Təşkilata daxil olan sorğuya və məktuba məsuliyyətlə yanaşır və cavablandırır.

Zaqatala rayon Veteranlar Təşkilatı Respublika Veteranlar Təşkilatının rəhbərliyi tərəfindən verilmiş göstəriş və tapşırıqları, qərarları işində rəhbər tutaraq fəaliyyət göstərir. Veteranlar Təşkilatı 10 nəfər vətəndaşa əmək veteranı adının verilməsini təşkil etmişdir.

*Ənvər Kərimov*
*Zaqatala rayon Veteranlar Təşkilatının sədri*

# Şərəfli Azərbaycan polisi

Uzun müddət daxili işlər orqanlarında, rayon icra hakimiyyətində hüquqşunas kimi çalışmış, polis polkovnik-leytenantı rütbəsi ilə təqaüdə çıxmışam. Xalqın keşiyində durmaq, erməni təcavüzkarlarına qarşı döyüşlərdə iştirak etmək, həyat fəaliyyətimin əsasını təşkil edir. Daim vətənimizin daha da qüvvətlənməsi, ictimai təhlükəsizliyin təmini və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində vətəndaşlıq borcumu bugün də yerinə yetirirəm. Hazırda rayon polis veteranları şurasının sədri və Astara rayon Veteranlar Təşkilatının sədr müavini kimi çalışıram.

Müasir dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi xüsusi diqqət mərkəzində olmalıdır. Bu sahədə önəmli uğurlar qazanan vətənpərvərlik və cinayətkarlığa qarşı mübarizə missiyasını öz üzərinə götürən bir rəhbər işçi haqqında danışmaq istəyirəm. O, harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq sözün əsl mənasında peşəkar polis işçisidir. Səmimi hərəkətləri, sadəliyi, diqqətliliyi və cinayətkarlığa qarşı mübarizədə qətiyyətliliyi ilə hamının rəğbətini qazanıb. Polis polkovniki Azər Cahangirov Astara rayon polis şöbəsinə rəis vəzifəsinə təyin olunduğu gündən narkotik və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar keçirilən uğurlu əməliyyat axtarış tədbirləri nəticəsində 72 fakt aşkarlayıb, istintaqa verilməsi ilə yanaşı 32 kiloqramdan artıq miqdarda narkotik vasitə dövriyyədən çıxarılmışdır.



Cinayətkarlıqla mübarizədə profilaktik tədbirlərin rolu böyükdür. Ona görə də fəaliyyətə başladığı ilk gündən yerlərdə əhali ilə geniş maarifləndirmə işlərinin aparılması, pedaqoji kollecdə, Astara şəhər 1 və 2 saylı, rayonun Ərçivan qəsəbəsindəki orta məktəblərdə “Nakotikə yox de, həyatını seç” , “Zərərli vərdişlər sağlamlıq üçün təhlükəlidir”, “Cinayətkarlığa qarşı mübarizədə ictimaiətin rolu” mövzularında rayon icra hakimiyyətinin , gənclər və idman idarəsi, təhsil idarəsi və Veteranlar təşkilatı ilə birgə tədbirlər keçirilmişdir.

Azərbaycan Polisinin yaranmasının 100 illiyi ilə əlaqədar Polis Günündə gənc polis əməkdaşları ilə veteranların görüşünü təşkil edərək Astara rayon Heydər Əliyev mərkəzində Ulu Öndərin fəaliyyətini əks etdirən foto və video materiallarla tanış etmişdir.

Azər Cahangirov vətəndaşların hüquqlarının müdafiəsi sahəsində onlara həmişə köməklik göstərir, xüsusən yeniyetmələrin və yetkinlik yaşına çatmayanların tərbiyə olunmasında profilaktiki tədbilərdə yaxından iştirak edir.

Məndə öz növbəmdə hər kəsi vətənpərvər olmağa səsləyir, üzərlərinə düşən işlərin öhdəsindən layiqincə gəlməyə səsləyirəm.

*Rafiq Əliyev*
*Astara rayon polis Veteranları şurasının sədri*

# Sloveniya yazıçısının Mehdi Hüseynzadəyə həsr etdiyi kitab Fərhad Abdullayevin tərcüməsində

Azərbaycan Tərcümə Mərkəzinin yeni nəşri – Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illiyinə hazırlanmış "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabı işıq üzü görüb.

AZƏRTAC xəbər verir ki, İkinci Dünya müharibəsi dövründə keçmiş Yuqoslaviya və İtaliya partizan dəstələrinin tərkibində nasist Almaniyasına qarşı döyüşmüş qəhrəmanın rəşadətli ömür yolundan bəhs edən əsərin müəllifi tanınmış Sloveniya yazıçısı Peter Amaliettidir.

Kitab igid partizanın tarixi qəhrəmanlıqlarının şahidi olmuş sloveniyalıların dili ilə söylənən xatirələr, sənədli mətn və materiallar əsasında tərtib edilib. Əsəri Azərbaycan dilinə tanınmış tərcüməçi Fərhad Abdullayev çevirib.

Kitaba yazılmış "Ön söz"də deyir: "Əsərdə müəllif Mehdi Hüseynzadənin uşaqlıq, gənclik illərini, Böyük Vətən müharibəsində onunla bağlı olan və indiyədək qaranlıq qalan qəhrəmanlıq səhifələrini oxucunun gözləri qarşısında bir sənətkar ustalığı ilə açır. Əsərdə uzun illər ərzində toplanmış nadir faktlar əsasında əfsanəvi partizanın keçdiyi döyüş yolu geniş işıqlandırılır, onun silah və əqidə dostlarının fəaliyyətindən ətraflı bəhs edilir. Nəticədə igid döyüşçünün müharibə illərində sloven, italyan, sovet partizanlarını heyran qoyan, almanları vahiməyə salan neçə-neçə qəhrəmanlıq epizodları ilə tanış oluruq. Kitabda xüsusi xidmət orqanlarının arxivlərindən, şahid xatirələrdən, sənədli-publisistik əsərlərdən və yazıçının öz araşdırmalarından geniş istifadə olunub. Mixaylonun təxribat əməliyyatları arxiv sənədləri əsasında təsvir edilib, bir çox faktlar və şəxs adlar həqiqidir.

Peter Amaliettidinin kitabında qəhrəman Mixaylo barədə bildiyimiz və bilmədiyimiz bir çox məqamlar yenidən araşdırılıb, müharibə illərində Sloveniyada baş verən ictimai-siyasi proseslərə qiymət verilib. Maraqlıdır ki, əsərdə Mixaylo həm faşistlərə qarşı mübarizə aparan partizan, həm də Sloveniya milli-azadlıq hərəkatının sadiq əsgəri kimi qələmə verilir. Yazıçı öz qəhrəmanının dili ilə Azərbaycan və Sloveniya arasında tarixi paralellik aparır, hər iki xalqın təcavüzə, soyqırıma məruz qaldığına, azadlıq və müstəqillik uğrunda mücadilə apardığına dair konkret faktlar göstərir.

Kitab Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2013-cü ildə rus dilində işıq üzü görüb. Əsər Azərbaycan Tərcümə Mərkəzinin təşəbbüsü ilə dilimizə tərcümə olunub. Ümid edirik ki, tanınmış jurnalist və publisist, mahir tərcüməçi Fərhad Abdullayevin tərcüməsində Azərbaycan oxucusuna təqdim olunan "Hamı bir nəfər üçün, yaxud Mixaylonun qisası" romanı əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin 100 illik yubileyinə layiqli töhfə olacaq.




Qeyd edək ki, Azərbaycan Tərcümə Mərkəzində işləyə Fərhad Abdullayevin imzası oxuculara yaxşı tanışdır. Onun tərcüməsində ədəbiyyatsevərlər Y.Dolqopolskinin "Mən şahmat oynayıram", M.Gerşensonun "Robin Hud", N.Xomiçin "Sərdabənin sirri", Ş.Aleyxemin "Seçilmiş əsərləri", M.Çexovun "Peşəkar aktyorluq dərsləri" və s. kitablarla tanış olub.

Fərhad Abdullayevin publisistikası da mövzu baxımından çox maraqlıdır, rəngarəngdir, bacarıqla istifadə elədiyi nəsr təhkiyəsi həmin yazıları daha da oxunaqlı edib. Onun "Birinci Nikolayın sevimli xanı", "Məhbus xanımın ölüm rəqsi", "Şuşada axşamlar yanar ulduzlar", "Musa Nağıyevin kişi sözü" publisistik yazılarının hər biri insan ömrü haqqında peşəkar qələm adamının təqdim elədiyi kövrək hekayələrdi. Xüsusilə, "Tarixin karvanı" silsiləsindən araya-ərsəyə gətirdiyi "Heçdir Vətənsiz can", "Böyüklər üçün dərs", "Dünyanın qürub çağı", "Onu bağışlamaq olarmı?", "Qatarın dalınca baxma", "Beş çömçə pay" və digər publisistik yazılarını oxuyanda onun nə vaxtsa nəsr əsərləri yazmadığına inanmaq olmur...

Az qala, qırx illik yaradıcılığında Fərhad Abdullayev peşəkar bir tərcüməçi kimi tanınıb, sevilib. O, Azərbaycan Tərcümə Mərkəzində işıq üzü görən görkəmli yəhudi yazıçısı Şalom Aleyxemin "Seçilmiş əsərləri"ni, böyük rus aktyoru Mixail Çexovun "Peşəkar aktyorluq dərsləri" monoqrafiyasını, "XX əsrin Norveç hekayələri" toplusunu (qələm dostları ilə birgə) və çağdaş Ukrayna yazıçısı Nikolay Xomiçin "Sərdabənin sirri" əsərini (Saday Budaqlı ilə birgə) dilimizə ustalıqla çevirib.

İnanırıq ki, Azərbaycan oxucusu Fərhad Abdullayevin tərcüməsində dünya ədəbiyyatının hələ çox inciləri ilə tanış olacaq.

# Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Mehdi Hüseynzadənin xatirəsi anılıb

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında (ADRA) İkinci Dünya müharibəsi dövründə kəşfiyyat-təxribat qrupun rəhbəri, Sovet İttifaqı Qəhrəmanı və rəssam Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyinə həsr edilən tədbir keçirilib.

Mərasimdə ADRA-nın prorektoru, professor Fuad Salayev tədbirin Prezident İlham Əliyevin "Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 23 iyun tarixli Sərəncamına əsasən təşkil edildiyini söyləyib. Bildirib ki, adı Azərbaycanın qəhrəmanlıq tarixinə əbədi həkk edilən əfsanəvi partizan Mehdi Hüseynzadə rəssamlıqla da məşğul olub, Bakı Rəssamlıq Məktəbini bitirib.

Mədəniyyət Nazirliyinin sektor müdiri Qalib Qasımov dövlətimizin başçısının Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadənin anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında müvafiq Sərəncamının əhəmiyyətini vurğulayıb. Bildirib ki, Sərəncamın icrası məqsədilə Müdafiə, Təhsil və Mədəniyyət nazirlikləri tərəfindən tədbirlər planı təsdiqlənib. M.Hüseynzadənin yubileyinə həsr edilən tədbirin keçirilməsində məqsəd əfsanəvi döyüşçünün rəssamlıq fəaliyyətinə nəzər salmaq və onu ictimaiyyətə çatdırmaqdır.



Q.Qasımov M.Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə bir çox işlərin görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, əfsanəvi döyüşçünün qəhrəmanlığından bəhs edən "Uzaq sahillərdə" filmi çəkilib, müxtəlif əsərlər yazılıb. M.Hüseynzadənin vaxtilə təhsil aldığı Bakı Rəssamlıq Məktəbinin bu gün ADRA-nın nəzdində fəaliyyətini davam etdirdiyi nəzərə alınaraq onun 100 illiyinə həsr olunmuş anım mərasiminin akademiyada təşkil olunması rəmzi məna daşıyır.

Sonra akademiyanın təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının professoru, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev M.Hüseynzadənin bədii yaradıcılığı, təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov isə əfsanəvi kəşfiyyatçının xatirəsinin əbədiləşdirilməsi məqsədilə aparılan işlər barədə məruzə ilə çıxış ediblər.

Çıxış edənlər Mehdi Hüseynzadənin həyat və döyüş yolundan, qəhrəmanlığından, bədii yaradıcılığından söz açıblar.

Anım mərasimində M.Hüseynzadənin həyatı və rəssamlıq fəaliyyəti ilə bağlı Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən hazırlanmış təqdimat olub.

AZƏRBAYCAN VETERANI

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Masallıda vətəndaşları qəbul edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Masallıda Biləsuvar, Cəlilabad və Masallı rayonlarının sakinlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbulda 20 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin aidiyyəti şöbələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsi, veteran adının və vəsiqəsinin verilməsinə dair olub.

Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb, qanunvericiliyin tələbləri vətəndaşlara izah edilib. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırmalardan sonra cavablandırılacağı bildirilib.



Vətəndaşların Xidmətin fəaliyyət istiqamətinə aid olmayan məsələlərlə bağlı müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

## Fransis Delmas: Fransanın azadlığı uğrunda döyüşmüş azərbaycanlı partizanlar əlaqələrimizi əbədiləşdiriblər



Azərbaycanı meriyamızın ərazisində yerləşən, İkinci Dünya Müharibəsi zamanı Kabertat Partizan Hərəkatının məskunlaşdığı məkanda dəfn olunmuş azərbaycanlı partizanların sayəsində qiyabi tanıyırıq. Fransanın azadlığı uğrunda döyüşmüş azərbaycanlı partizanlar əlaqələrimizi əbədiləşdiriblər.

Bu fikri İkinci Dünya Müharibəsində Kabertat Partizan Hərəkatının fəaliyyət göstərdiyi Vaysak kommunasının meri Fransis Delmas AZƏRTAC-a müsahibəsində söyləyib.

Qeyd edib ki, Azərbaycan ilə əməkdaşlıqda, daha sıx əlaqələrin qurulmasında maraqlıdırlar.

"Əhmədiyyə Cəbrayılovu (Ahmed Mişel) hamı tanıyır, onun şücaətini hamı bilir. Mən onun haqqında müqavimət hərəkatının iştirakçılarından eşitmişdim. Kabertat meşəliyi onların məkanı olub. Burada onlar Fransanın nasistlərdən azad edilməsi uğrunda döyüşüblər. Bu məkanda ümumi xatirə məkanı var, ancaq Ahmed Mişel üçün əlavə stell qoyulub. Onun xatirəsini daim yad edirik", - deyə mer Fransis Delmas bildirib.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaysak***

# Əhmədiyyə Cəbrayılovun dostu: "Dil bilmədiyinə görə xeyli sayda azərbaycanlı öldü"



*Mahmud Motuxov: "1943-cü ilə qədər mənə bir tüfəng vermişdilər, heç çaxmağı da yox idi"*

Heç kəsə sirr deyil ki, II Dünya Müharibəsində SSRİ-nin qalib gəlməsində Azərbaycan neftinin və azərbaycanlıların rolu böyük olub. Bu gün Azərbaycanda yüzlərlə II Dünya Müharibəsi veteranı var ki, müharibə və orada baş verən hadisələri onların dilindən eşitmək daha maraqlıdır.

Getdikcə sıraları azalan veteranlardan biri də 94 yaşlı Mahmud Motuxovdur. Mahmud baba Balakən rayonunun Gərəkli kəndində yaşayır. Yarım əsrdən çox vaxt keçsə də, yaşlı veteran həmin günləri bugünkü kimi xatırlayır.

Müharibənin canlı şahidi olan Mahmud baba xatirələrini bizimlə bölüşüb: "1941-ci ildə müharibəyə getmişəm. 17 yaşım var idi. Əvvəlcə bizi apardılar Duşeti şəhərinə. Orada 1 il təlim keçdikdən sonra döyüş bölgəsinə göndərdilər".

Müsahibimiz deyir, almanların ordusunun texniki təchizatı sovet ordusundan qat-qat yüksək idi: "Bizim nə silahımız var idi, nə də normal ərzağımız. Onlar isə çox güclü silah və ərzaqla təmin olunmuşdular. Yüksək səviyyəli silahdan əlavə, onlar piyada deyildilər. 1943-cü ilə qədər mənə bir tüfəng vermişdilər, heç çaxmağı da yox idi. 2-ci cəbhə açılanda gün üzü gördük. Bizə normal yemək və silah verdilər".

Mahmud baba Kursk, Krım, Dnepr çayının sahillərində gedən döyüşlərdə iştirak edib. Onun sözlərinə görə, baxmayaraq ki, SSRİ silah və ərzaq baxımından düşmənindən zəif idi, amma onlar həmişə qalib gələcəyinə inanırdılar. Bəlkə də onları qələbəyə aparan da elə o güclü inam olub.

"Bizim qüvvəmiz onlardan zəif olsa da, şəxsən mən qalib gələcəyimizə inanırdım. Mənim 2 qardaşım müharibədə itkin düşmüşdü. Bizə hər səhər 100 qram spirt verirdilər ki, həm soyuq olmasın, həm də döyüş əzmimiz yüksək olsun. Ancaq biz müsəlmanlar içmirdik, verirdik ruslara. Bizdə onsuz da qorxu yox idi", — deyir müsahibimiz.

Mahmud Motuxov danışır ki, müharibədə azərbaycanlıların ən böyük problemi dil bilməmək olub: "Dil bilmədiklərinə görə nə qədər əsgərimizi itirdik. Mircəfər Bağırovla Stalinin münasibətləri yaxşı idi. O, Stalindən azəbaycanlılardan ibarət diviziyaların yaradılmasını xahiş etməsəydi, bütün əsgərlər qırılardı".

111-ci diviziyada döyüşən Mahmud baba 1944-cü ildə Dnepr çayı sahilində başlayan döyüşlərdə yaralanıb: "Dnepr çayı yaxınlığındakı döyüşdə hər iki tərəf çoxlu sayda itki verdi. Mən də ayağımdan yaralandım. Yanımda həmkəndlim var idi. Döyüş yoldaşıma yaralandığımı dedim. Ağır döyüşlər gedirdi. Məni 50 metr arxaya gətirdilər, 3 gün orada qaldım. Sonra həmin yeri də atəşə tutdular. Qaça bilən qaçdı, mən qaldım".

Dediyinə görə, sonradan Dnepr çayının üzərində asma körpü düzəldiblər və onun vasitəsi ilə Mahmud babanı çayın o biri sahilinə keçiriblər: "Dnepri keçəndən sonra məni apardılar Çerniqovskiyə. Həmin kazarmanı da faşistlər bombaladı. Sonra məni Tulaya apardılar, düz 11 sutka yol getdik. 6 ay orada yatdım. 4 aydan çox müddətdə mənim nə paltarım, nə də çəkməm əynimdən çıxmışdı. Daha sonra Sterlitamaka gətirdilər, 3 ay da orada yatdım".

İnsan dara düşəndə hər an möcüzə gözləyir. Bəzən yalana da inanmaq istəyir. Elə Mahmud baba kimi. Mahmud babanın da ən böyük arzusu müharibədən sonra anasını, atasını sağ-salamat görmək olub. Bu arzusuna o, 1944-cü ilin noyabrında — ordudan tərxis olunanda çatıb.

100 yaşını tamamlamağa 6-ca ili qalmış müharibə veteranı indiyədək 4 dəfə evlənib. Ancaq dediyinə görə, həyatının ən xoşbəxt illəri 3-cü xanımı ilə keçib.

Ömrünü dağlarda, at belində keçirən veteranımız onlara qonaq gələn hər kəsə müharibə xatirələrindən səvə-səvə danışır. Çünki müharibə illərini ömrünün ən şərəfli illəri hesab edir: "Mən həmişə deyirəm, müharibədən qorxmaq lazım deyil. Döyüşdən qaçmaq istəyən yoldaşlarıma da deyirdim ki, bu, bir imtahandır. Allaha şükür ki, mən bu imtahandan uğurla keçdim".

M.Motuxov məşhur Əhmədiyyə Cəbrayılovla da dost olduqlarını diqqətə çatdırır.

Mahmud babanın oğlu Şamil Motuxov danışır ki, Azərbaycan müstəqillik qazanandan sonra, necə olubsa, atasının sənədləri it-bata düşüb. Mahmud babaya artıq veteran sayılmadığını bildiriblər: "Həmin vaxt Sankt-Peterburqda yaşayırdım. Atam mənə zəng elədi ki, mənim sənədlərimi tap. Mən atamın yaddaşı sayəsində o sənədləri tapdım. Getdiyi hər şəhəri, hər bölgəni dəqiqliyi ilə dediyinə görə mən çətinlik çəkmədim. Sankt-Peterburqda arxiv idarəsi var, həmin yerə müraciət etdim və atamın sənədlərini gətirdim".

